**Qeyri-hökumət təşkilatları üçün terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə**
**TƏLİMAT**

1.1. "Qeyri-hökumət təşkilatları üçün terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə Təlimat" qeyri-hökumət təşkilatları, o cümlədən xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin *(bundan sonra QHT)* özlərini terrorçuluğun maliyyələşdirilməsində istifadə edilən müxtəlif metodlardan sığortalaması və öz gəlir mənbələrinin şəffaflığını təmin edə bilməsi məqsədilə hazırlanmışdır.

1.2. Öz öhdəliklərini yerinə yetirə bilməsi üçün QHT-nin aşağıdakı anlayışlarla tanış olması zəruridir:

1.2.1. **FATF** – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinə qarşı qlobal maliyyə sistemini qorumaq üçün müvafiq siyasətin formalaşdırılması və yayılmasını təmin edən müstəqil hökumətlərarası qurum;

1.2.2. **terrorçuluğun maliyyələşdirilməsi** - Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1-ci maddəsinə əsasən əldə olunma mənbəyindən asılı olmayaraq, pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və yaxud qismən, bilavasitə və ya dolayısı ilə bu Məcəllənin 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə olunacağım bilərək pul vəsaitlərinin və ya digər əmlakın qəsdən toplanılması və ya verilməsi (Qeyd: Pul vəsaitlərinin və ya digər əmlakın terror aktlarının törədilməsində və ya törədilməsinə cəhddə faktiki istifadə olunmaması və ya konkret terror aktı ilə əlaqədar olmaması əmələ görə cinayət məsuliyyətini aradan qaldırmır. Məcəllənin 214-1-ci maddəsi ilə nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla terrorçuluq əməlinin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir);

1.2.3. **maliyyə monitorinqi orqanı** - cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən, fəaliyyəti əlaqələndirən, habelə bu sahədə dövlət siyasətinin formalaşmasında iştirak edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

1.2.4. **monitorinq** - mənbəyi məlum olan məlumatlar və sənədlər əsasında maliyyə monitorinqi orqanı tərəfindən həyata keçirilən araşdırma tədbirləri;

1.2.5. **cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə tələblərə riayət edilməsi** – cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində hüquqi aktların tələblərinə riayət edilməsi;

1.2.6. **nəzarət obyekti -** QHT və xarici QHT-nin filial və ya nümayəndəliyi;

1.2.7. **nəzarət orqanı** – QHT-lərə münasibətdə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə

haqqında” Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi.

1.2.8. **nəzarət tədbirləri** - nəzarət orqanı tərəfindən tətbiq edilən bütün növ yoxlama tədbirləri, o cümlədən nəzarət, araşdırma, müşahidə, təftiş, baxış və digər oxşar tədbirlər;

1.2.9. **benefisiar mülkiyyətçi** – son nəticədə müştəriyə nəzarəti həyata keçirən və ya hüquqi şəxs, yaxud xarici hüquqi təsisat olan müştərinin əsl sahibi olan və (və ya) xeyrinə əməliyyat aparılan və (və ya) əqdlər bağlanılan, habelə son nəticədə hüquqi şəxs və ya xarici hüquqi təsisat üzərində effektiv nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər);

1.2.10. **siyasi nüfuzlu şəxslər** – hər hansı dövlətdə (ərazidə) və ya beynəlxalq təşkilatda mühüm dövlət və ya ictimai vəzifə tutan və ya əvvəllər belə vəzifəni tutmuş şəxslər (dövlət və hökumət başçıları, dövlət orqanlarının (qurumların) rəhbərləri, onların müavinləri, qanunverici orqanın üzvləri, siyasi partiyaların idarəetmə orqanlarının üzvləri, ali və konstitusiya məhkəmələrinin hakimləri, ali auditi həyata keçirən nəzarət orqanlarının və mərkəzi bankların idarəetmə orqanlarının üzvləri, fövqəladə və səlahiyyətli səfirlər, müvəqqəti işlər vəkilləri, ali hərbi və ali xüsusi rütbəli şəxslər, dövlət müəssisələrinin idarəetmə orqanlarının üzvləri, beynəlxalq təşkilatların rəhbərləri, onların müavinləri, idarəetmə orqanlarının üzvləri);

1.2.11. **hədəfli maliyyə sanksiyaları** – sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı yolla aktivlərdən faydalanmasının qarşısının alınmasına yönələn qadağalar və ya həmin fiziki şəxslərin və qurumların aktivlərinin dondurulması tədbirləridir;

1.2.12. **sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar** – terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən barələrində sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlardır;

1.2.13. **aktivlər** – əldə edilmə üsulundan asılı olmayaraq istənilən növ maddi və qeyri-maddi əmlak nemətləri (maliyyə aktivləri, iqtisadi resurslar (neft və digər təbii ehtiyatlar da daxil olmaqla), daşınar və ya daşınmaz əmlak, poçt göndərişləri, bank kreditləri, akkreditivlər, yol çekləri, bank çekləri, istiqrazlar, veksellər, səhmlər və digər qiymətli kağızlar, virtual aktivlər, habelə belə əmlak nemətlərinin əldə edilməsindən yaranan faizlər, dividendlər və ya digər gəlirlər, eləcə də bu əmlak nemətləri üzərində hüquqlarını təsdiq edən, elektron (rəqəmsal) da daxil olmaqla istənilən növ hüquqi sənədlər, həmçinin bu əmlak nemətlərinin əldə edilməsi üçün istifadə edilə bilən istənilən növ digər aktivlərdir;

1.2.14. **aktivlərin dondurulması** – “Hədəfli maliyyə sanksiyaları haqqında” Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan aktivlərin köçürülməsinin, konversiyasının, hərəkətinin, habelə həmin aktivlərə sərəncam verilməsinin və ya onlarla hər hansı formada maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsinin qadağan edilməsidir;

1.2.15. **beynəlxalq siyahılar** – Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, habelə kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış sanksiya komitələri tərəfindən sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların daxil edildiyi siyahılardır;

1.2.16. **ölkədaxili siyahı** – terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların Azərbaycan Respublikası məhkəmələrinin qərarları əsasında daxil edildiyi siyahıdır;

1.2.17. **hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı** – hədəfli maliyyə sanksiyalarının tətbiqi məqsədilə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən yaradılan və idarə olunan internet informasiya ehtiyatı.

## 2. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunun icrası üzrə

2.1. 2023-cü il fevralın 1-dən qüvvəyə minmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanun *(bundan sonra - Qanun)* qeyri-hökumət təşkilatları, o cümlədən xarici qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri üçün bir sıra öhdəliklər yaratmışdır:

2.1.1 terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən hər hansı dini qurum, qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi risklərin minimallaşdırılmasına yönəldilmiş qayda və prosedurlara malik olmalı;

2.1.2. əmlakının pul və ya digər şəkildə formalaşdırılma mənbələri, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatı tərtib edilməli;

2.1.3. tərtib edilmiş maliyyə hesabatı hər il aprel ayının 1-dən gec olmayaraq Ədliyyə Nazirliyinə təqdim edilməlidir *(maddə 12.3)*.

2.2. Qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi qrant və ianələr, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatını Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 201 nömrəli qərarı ilə təsdiq edilmiş “Qeyri-hökumət təşkilatının illik maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydası” ilə müəyyən edilmiş formalara *(https://e-qanun.az/framework/27448 linkə daxil olmaqla adıçəkilən Qayda və bu Qayda ilə müəyyən edilmiş illik maliyyə hesabatlarının formaları ilə tanış ola bilərsiniz)* uyğun tərtib etməli və hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etməlidir.

2.3. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanunun 31.8-ci maddəsinə əsasən qeyri-hökumət təşkilatı, habelə xarici dövlətlərin qeyri-

hökumət təşkilatlarının filial və nümayəndəlikləri illik maliyyə hesabatını müəyyən edilmiş müddətdə təqdim etmədikdə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həmin təşkilata yazılı surətdə xəbərdarlıq etməklə müvafiq hesabatın 30 (otuz) gün müddətində təqdim edilməsinə dair göstəriş verir. Bu müddətdə hesabat təqdim etməyən qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən məsuliyyət daşıyırlar. İnzibati Xətalar Məcəlləsinə əsasən:

2.3.1. Dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə risklərin minimallaşdırılmasına yönəldilmiş qayda və prosedurlara malik olmamasına görə vəzifəli şəxslər iki min manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir *(İnzibati Xətalar Məcəlləsinin 598.8-ci maddəsi)*;

2.3.2. Qeyri-hökumət təşkilatları, o cümlədən xarici qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəlikləri tərəfindən əmlaklarının pul və ya digər şəkildə formalaşdırılma mənbələri, həmçinin onlardan istifadə üzrə təfsilatlı illik maliyyə hesabatının "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilən nəzarət orqanına təqdim edilməməsinə, yaxud vaxtında, tam və ya düzgün təqdim edilməməsinə görə vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir *(İnzibati Xətalar Məcəlləsinin 598.8-1-ci maddəsi)*.

## 3. "Hədəfli maliyyə sanksiyaları haqqında" Qanunun icrası üzrə

3.1. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərinə uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının tətbiqinin hüquqi əsasının və qaydasının müəyyən edilməsi üçün 2023-cü ilin 01 fevral tarixində "Hədəfli maliyyə sanksiyaları haqqında" Qanun qüvvəyə minmişdir.

3.2. Hədəfli maliyyə sanksiyaları cinayət mühakimə icraatı çərçivəsində tətbiq edilən tədbirləri əvəzləmədən, önləyici xarakter daşıyaraq, terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə aktivlərin təxirəsalınmadan dondurulmasına və sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların aktivlər, iqtisadi resurslar və ya maliyyə və digər əlaqəli xidmətlərlə təmin edilməsinin qadağan edilməsinə dair tədbirləri nəzərdə tutur.

3.3. “Hədəfli maliyyə sanksiyaları haqqında” Qanunun 4-cü maddəsinə əsasən terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi fəaliyyəti ilə bilavasitə əlaqəli olub-olmamasından asılı olmayaraq aşağıdakı aktivlər dondurulmalıdır:

- sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların aktivləri;
- sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan aktivlər, habelə belə aktivlər vasitəsilə əldə edilmiş digər aktivlər;
- sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların adından və ya onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslərin və qurumların aktivləri;
- sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumların aktivləri.

3.4. Qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri həmin aktivləri beynəlxalq və ölkədaxili siyahılar hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında *(http://hms.gov.az/index.php?pg=1 linkinə daxil olmaqla beynəlxalq və ölkədaxili siyahılarla tanış ola bilərsiniz)* dərc edildiyi vaxtdan təxirəsalınmadan və həmin şəxslərə xəbərdarlıq etmədən dondurmalı və dərhal bu barədə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, habelə maliyyə monitorinqi orqanına məlumat verməlidirlər.

3.5. “Hədəfli maliyyə sanksiyalarının tətbiqinə dair Təlimat”a əsasən qeyri-hökumət təşkilatları:

3.5.1. Hədəfli maliyyə sanksiyaları üzrə siyahının öz sistemində təxirəsalınmadan yenilənməsinə imkan verən sistemə malik olmalı və qrant və ianə alarkən, habelə verərkən şəxsin və hüquqi şəxslər üzrə, həmçinin benefisiar mülkiyyətçinin, hüquqi şəxsin hesabı üzrə imza səlahiyyətli şəxslərin, təsisçilərin, mühüm iştirak payının sahiblərinin, hüquqi şəxsin idarəetməsini həyata keçirən şəxslərin, hüquqi təsisatlarda təsisçi, idarəçi, təminatçı, benefisiar və ya benefisiarlar qrupunun, hüquqi təsisat üzərində effektiv nəzarəti həyata keçirən hər hansı digər fiziki şəxsin (nəzarət və ya sahiblik zənciri də daxil olmaqla) siyahıdakı şəxs olması (eyniləşdirmə məlumatlarında oxşarlıq) yoxlanmalı, mümkün uyğunluq halında şəxsə xidmət göstərən əməkdaşa sistem üzrə dərhal xəbərdarlıq bildirişi çıxmalıdır.

3.5.2. Bu halda (qrant və ya ianə verərkən əməliyyatı dayandırılmaqla) dərhal (həmin iş gününün sonundan gec olmayaraq) bu barədə müvafiq qaydada Maliyyə Monitorinqi Xidmətinə məlumat verilməlidir.

3.6. İnzibati Xətalar Məcəlləsinin 598.10-cu maddəsinə əsasən “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada aktivlərin dondurulması üzrə tədbirlərin görülməməsinə, hər bir fiziki şəxs və ya quruma görə vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər otuz min manatdan əlli min manatadək məbləğdə cərimə edilir.

## 4. Qeyri-kommersiya təşkilatları üçün ianələrin qəbulu zamanı nəzərə alınmalı şübhəlilik meyarları (indikatorları)

4.1. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının 28.12.2023-cü il tarixli 02/23 nömrəli qərarı ilə təsdiq edilmiş "Avropa Şurasının MONEYVAL Komitəsi tərəfindən təsdiq edilmiş Azərbaycan Respublikasının qarşılıqlı qiymətləndirmə hesabatında müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair qisamüddətli Tədbirlər Planı"nın 10.2-ci yarımbəndinin icrası çərçivəsində Maliyyə Monitorinqi Xidməti (MMX) tərəfindən "Qeyri-kommersiya təşkilatları üçün ianələrin qəbulu zamanı nəzərə alınmalı şübhəlilik meyarları (indikatorları)" hazırlanmışdır və tövsiyə xarakteri daşıyır.

4.2. Meyarların hazırlanmasının məqsədi terrorçuluğun maliyyələşdirilməsi məqsədilə istifadənin qarşısının alınması çərçivəsində öhdəlik daşıyan şəxslərə, dini qurumlara, qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və nümayəndəliklərinə metodiki dəstək göstərməkdir.

4.3. Aşağıda qeyd edilən meyarlardan biri ianənin miqdarı 5.000 (beş min) manat və ondan yuxarı məbləğdə olduqda müəyyən edilərsə, bu hal şübhəli hal hesab edilir:

4.3.1. Riskli coğrafi ərazi ilə əlaqəlilik meyarları

- İanəçi və ya ianə üçün vasitə kimi istifadə edilən hüquqi şəxs terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi və ya cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, habelə maliyyə cinayətləri ilə bağlı sahədə yüksək riskli olan dövlətlərlə əlaqədədirsə;

4.3.2. İanəçinin profili və davranışı

- İanəçi hüquqi şəxsin və ya aktivlərin benefisiar mülkiyyətçisi anonim qalırsa;
- İanənin icrası üçün vasitəçi kimi istifadə edilən hüquqi şəxs birbaşa və ya dolayı yolla siyasi nüfuzlu şəxslə və ya onun yaxın qohumları ilə və ya onun yaxın münasibətdə olduğu şəxslərlə əlaqəlidirsə;
- İanəçinin özü, eləcə də fəaliyyətinə dair tələb olunan məlumatları təqdim etməkdən yayınırsa, yaxud natamam/dəqiq olmayan məlumat təqdim edirsə;
- İanəçi məlumat tələbindən sonra ianə təklifini geri götürdükdə və ya geri çəkilmək istəyini bildirirsə.

4.3.3. İanəyə dair risk meyarları

- İanənin üçüncü şəxslər tərəfindən keçirilməsi təklif edilirsə;
- İanəçinin gəlir mənbəyi bəlli deyilsə;

- İanənin mürəkkəb ianə strukturları, yəni vəsaitlərin əsl mənbəyini və ya məqsədini gizlətmək üçün nəzərdə tutulmuş mürəkkəb maliyyə razılaşmaları və ya əməliyyatlarının keçirildiyi müəyyən edilirsə;

- İanəçi ianənin bir hissəsinin geri qaytarılmasını, yaxud ianəni birbaşa və ya dolayısı ilə özünün əlaqəli olduğu biznes fəaliyyətlərinə ayırmağı təklif edirsə.

4.3.4. Xeyriyyəçiliklə məşğul olan QKT-lərin nəzərə almalı olduğu risk meyarları

- QKT tərəfindən maliyyələşdirilən şəxs terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi və ya cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, maliyyə cinayətləri ilə bağlı sahələrdə yüksək riskli olan dövlətlərlə birbaşa və ya dolayı əlaqədədirsə;

- QKT tərəfindən maliyyələşdirilən şəxsin cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxs qismində iştirakçı, yaxud barələrində ekstremizm, terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi və digər əlaqəli cinayətlər, habelə iqtisadi cinayətlərin törədilməsi nəticəsində məhkumluğu barədə məlumat varsa ;

- QKT tərəfindən maliyyələşdirilən şəxs özü və ya fəaliyyətinə dair tələb olunan məlumatları təqdim etməkdən yayınır, yaxud natamam məlumat təqdim edirsə;

- QKT tərəfindən maliyyələşdirilən şəxs ianəni birbaşa və ya dolayısı ilə özünün əlaqəli olduğu biznes fəaliyyətlərinə ayırmağı, etibarnamə əsasında idarə edilən hüquqi şəxslərin yaradılmasını, birbaşa və ya dolayı idarəçiliyinə malik olduğu əlavə cari hesabların açılmasını təklif edirsə.

## 5. Ölkə risk qiymətləndirilməsi

5.1. Ölkə risk qiymətləndirilməsi ölkə səviyyəsində risklərin müəyyənləşdirilərək qiymətləndirilməsi, həmin risklərə uyğun olaraq hədəflərin müəyyən edilməsi, eləcə də risklərin aradan qaldırılması və ya azaldılması üzrə atılan tədbirlərdən ibarətdir.

5.2. QHT-lər illik əsasla cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi üzrə institusional riskləri müəyyən etməli, qiymətləndirməli, qiymətləndirmə nəticələrini sənədləşdirməli və nəzarət orqanına təqdim etməli, həmçinin rəhbərlik tərəfindən təsdiq edilən daxili qayda və prosedurlara uyğun olaraq risklərin idarə olunması, aradan qaldırılması və ya azaldılması üçün tədbirlər görməlidirlər. QHT-lər institusional risk qiymətləndirilməsi zamanı bütün risk faktorlarını, ölkə və sahəvi risk qiymətləndirilmələrinin nəticələrini nəzərə almalıdırlar.

## 6. Nəzarət orqanı

6.1. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə QHT-lər tərəfindən əməl edilməsinə nəzarəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyi həyata keçirir. Ədliyyə Nazirliyi bu nəzarəti həyata keçirərkən Ədliyyə Nazirliyi Kollegiyasının 31 oktyabr 2014-cü il tarixli 10-N nömrəli Qərarı ilə təsdiq edilmiş

Qaydaları (*https://e-qanun.az/framework/28947 linkinə daxil olaraq Qaydalarla tanış ola bilərsiniz)* rəhbər tutur.

6.2. Ədliyyə Nazirliyi QHT tərəfindən “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunun 12.3-cü maddəsinin və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarət edir.

6.3. Ədliyyə Nazirliyi QHT-lər tərəfindən “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunun tələblərinə əməl edilməməsini aşkar edərsə, onlara qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri tətbiq edir və bu barədə maliyyə monitorinqi orqanına məlumat verir.

6.4. QHT-lər ilə nəzarət orqanı arasında məlumat və sənəd mübadiləsi “Fərdi elektron pəncərə” elektron məlumat sistemi vasitəsilə aparıla bilər.

6.5. Ədliyyə Nazirliyi nəzarət obyektləri üçün cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə dövri təlimlər təşkil edir, habelə “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn tələblərin yerinə yetirilməsi ilə bağlı təlimatlar hazırlayıb təqdim edir.

## 7. Terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq məqsədilə öz fəaliyyətinin tərkib hissəsi kimi vəsait alan, toplayan, verən və ya vəsait köçürən hər hansı dini qurum, qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi tərəfindən risklərin minimallaşdırılması üzrə tövsiyələr

7.1. QHT-lərin terrorçular tərəfindən sui-istifadə edilməsindən qorumaq məqsədilə həyata keçirilən tədbirlər qanuni olmalı, xeyriyyə məqsədli fəaliyyətlərə maneə törətməməli və ya belə fəaliyyətlərin təşkili ilə bağlı motivasiyanın azalmasından çəkinməlidir. Qeyd olunan tədbirlər sektorda şəffaflığın təşviq edilməsinə və xeyriyyə vəsaitləri və xidmətlərin öz nəzərdə tutulmuş benefisiarlarına gəlib çatdığını göstərməklə, donor ictimaiyyətində və ictimai təbəqələrdə ona qarşı etimadın artmasına təkan verməlidir.

7.2. Göstərilənlərlə əlaqədar QHT-lərə aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə olunur:

7.2.1. **Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə məsul şəxsin təyin olunması** - terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində təşkilatın daxili qayda və prosedurlarının həyata keçirilməsinə nəzarət etmək, Ədliyyə Nazirliyinə təqdim olunması üçün hesabatların hazırlanması, müvafiq sahədə QHT əməkdaşlarına mütəmadi təlimlər keçirmək, eyni zamanda bu sahədə yenilikləri izləmək və təşkilatı

məlumatlandırmaq üçün QHT tərəfindən məsul şəxs təyin olunur. Göstərilənlərlə əlaqədar məsul şəxs QHT-nin rəhbərliyinə hesabat təqdim edir.

7.2.2**. Müstəqil auditorun cəlb edilməsi** – QHT-lər müstəqil auditor cəlb edərək onun tövsiyələri əsasında aşkar edilən nöqsan və çatışmazlıqlar, mövcud problemlərin həlli istiqamətində zəruri hesab edilən tədbirləri həyata keçirə bilər.

7.2.3. **İşə qəbulla bağlı qaydaların müəyyən edilməsi** - QHT-lər işə qəbul etdiyi şəxslərin şəxsiyyətini təsdiq edən sənədin, təhsilə dair sənədin, məhkumluğun olub-olmamasına dair sənədin, əvvəlki iş yerindən xasiyyətnamələrin alınmasını təmin etməsi üçün buna dair qaydalar tərtib edə bilər.

7.2.4. **Təlimlərin təşkil olunması** - QHT-lər terrorçuluğun maliyyələşməsi ilə mübarizə sahəsində qanunvericilikdə dəyişiklikləri izləmək və öz əməkdaşları üçün mütəmadi məlumatlandırma təlimlərini təşkil edə bilər. Bu təlimlər normativ baza ilə tanışlıq və yeniliklər barədə müzakirələri əhatə edir. QHT-nin əməkdaşları bu sahədə öz bilik və bacarıqlarını artırmaq üçün Maliyyə Monitorinqi Xidməti və Ədliyyə Nazirliyi tərəfindən təşkil edilən təlimlərdə və oxşar tədbirlərdə iştiraka cəlb edilə bilər. Tövsiyə olunur ki, QHT bu məsələləri üzvlərin ümumi yığıncağı zamanı nəzərdən keçirsin. İşçilərin sayı 10 nəfərdən çox olduğu QHT-lərdə, bu təlimlərin keçirilməsi plan şəklində təsdiq oluna bilər.